# "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

***Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

"Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:
1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:
1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;
1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;
1.3. "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 7.4-cü maddəsində nəzərdə tutulmuş Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş qərargahının, regional mərkəzlərinin və ərazi komitələrinin fəaliyyəti üçün qeyri-yaşayış sahələri ilə təmin olunması məqsədi ilə zəruri tədbirlər görsün;
1.4. öz səlahiyyətləri daxilində "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.
2. Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əmək haqları dövlət büdcəsi hesabına ödənilən işçilərinin say həddini müəyyən etsin.
3. Müəyyən edilsin ki, "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 7.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.
4. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 may 2007-ci il**